ŞƏFFAFLIQ
AZƏRBAYCAN

**"ŞƏFFAFLIQ AZƏRBAYCAN" TƏŞKİLATI**

**APREL-İYUL 2007-CI IL ƏRZINDƏ GÖRÜLƏN IŞLƏR BARƏDƏ**

# MƏTBUAT ÜÇÜN HESABAT

1. **TƏŞKİLAT VƏ LAYİHƏ HAQQINDA QISA MƏLUMAT**
2. **MƏRKƏZLƏRIN FƏALIYYƏTI HAQQINDA MƏLUMAT**
3. **DÖVLƏT ORQANLARI VƏ QHT-LƏR ILƏ ƏMƏKDAŞLIQ**
4. **MÜRACIƏTLƏRIN ÜMUMI STATISTIKASI**
5. **UĞURLA HƏLL EDILMIŞ BƏZI MÜRACIƏTLƏR**

## TƏŞKİLAT VƏ LAYİHƏ HAQQINDA QISA MƏLUMAT

1993-cü ildə təsis olunan Beynəlxalq Şəffaflıq təşkilatı beynəlxalq qeyri-hökümət təşkilatıdır və dünyada aparıcı anti-korrupsiya hərəkatıdır. Beynəlxalq Şəffaflıq təşkilatının katibliyi Berlin şəhərində təsis olunub və milli bölmələrin köməyi ilə 90-dan çox ölkədə anti-korrupsiya fəaliyyətlərini əlaqələndirir. Bölmələr müstəqil yerli QHT-rı olaraq öz siyasətlərini azad seçirlər və fəaliyyətlərini davam etdirmək üçün fondlarını artırlar. "Şəffaflıq Azərbaycan" İctimai Birliyi 2000-ci ilin Oktyabr ayında vətəndaş cəmiyyəti və elmi nümayəndələr tərəfindən təsis olunmuşdur. 2001-ci ildə "Şəffaflıq Azərbaycan" təşkilatına milli bölmə statusu verilmişdir.

2005 ci il Aprel ayının 1-dən etibarən "Transparency İnternational" Təşkilatının Azərbaycan bölməsi MDB ölkələri arasında ilk olaraq yeni "ALAC" (İctimai Maraqların Müdafiəsi və Hüquq Məsləhət Mərkəzi) layihəsini həyata keçirir. Layihə ilk əvvəl Bakı və Gəncə olmaqla 2 mərkəz vasitəsi ilə fəaliyyət göstərirdisə, bu gün artıq 5 mərkəz (Quba, Lənkəran, Şəki) vətəndaşların qulluğundadır. Bakı ofisi 2005-ci il iyul ayının 1-dən, 1 Avqust 2005-ci il tarixdən Gəncə mərkəzi, Lənkəran mərkəzi 1 İyul 2006-cı il tarixdən və Quba mərkəzi 1 Avqust 2006-cı il tarixdən, Şəki mərkəzi isə 1 Fevral 2007 ci il tarixdən tam fəaliyyət göstərir.

Hər bir şəxs aşağıdakı telefonlar vasitəsilə mərkəzlərə müraciət edə və pulsuz hüquqi yardım ala bilər.

- **Qaynar xətt Bakı 088 707 07 07 və yaxud (12) 497 68 15**
- **Qaynar xətt Gəncə 088 202 02 02 və yaxud (22) 59 05 92**
- **Qaynar xətt Lənkəran 088 303 03 03 və yaxud (171) 5 17 25**
- **Qaynar xətt Quba 088 404 04 04 və yaxud (169) 5 14 37 ya 5 14 91**
- **Qaynar Xətt Şəki 088 505 05 05 və yaxud (177) 4 26 55 ya 4 48 90**

Layihə, Boyuk Britaniya Xarici İşlər Nazirliyinin "Qlobal İmkanlar Fondu" proqramı və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) (Bakı, Gəncə və Lənkəran mərkəzləri), eləcə də ATƏT-in Bakı ofisinin (Quba və Şəki mərkəzləri, qismən də Bakı və Gəncə mərkəzləri) qrant dəstəyi əsasında həyata keçirilir.

ALAC layihəsi bir sıra Mərkəzi və Şərqi Avropanın Avropa İttifaqına üzvlüyünə namizəd ölkələrdə uğurla həyata keçirilmişdir. Sözü gedən ölkələrdə bu kimi layihələr böyük rol oynayır və vətəndaşların korrupsiyaya qarşı müqavimətini təmin etməklə dövlətlərin korrupsiyaya qarşı mübarizəsini sürətləndirir.

ALAC layihəsinin məqsədi vətəndaşları cəmiyyətdə baş verən korrupsiya halları ilə fəal mübarizəyə cəlb etməkdir.

ALAC layihəsinin missiyası vətəndaşlara korrupsiya şahidləri və korrupsiyanın qurbanlarına çevrilən hər bir kəsə pulsuz hüquqi yardım göstərmək və məsləhət verməkdir. Layihə zamanı göstərilən fəaliyyət inzibati və hüquqi şikayət, həmçinin vətəndaşlar tərəfindən qaldırılmış məsələlər nöqteyi nəzərdən korrupsiya mexanizmlərinin monitorinqi prosedurlarına əsaslanır. Lakin layihə, vətəndaşları məhkəmədə təmsil etmir və onların adından və ya onların nümayəndəsi kimi 3-cü şəxslərin qarşısında çıxış etmir.

**Layihə beş istiqamətdə həyata keçirilir:**

- **Hüquqi məsləhət**
- **Maariflənmə və məlumatlandırma**
- **İctimai maraqların müdafiəsi**
- **Dövlət orqanlarının institutsional inkişafına yardım**
- **Mobil treninq və seminar**

Hüquqi məsləhət vətəndaşlara öz hüquqlarının bərpası və qorunması üçün effektli hüquqi mexanizmlərin istifadə edilməsi və dövlət orqanlarına müraciətlərin hazırlanmasına dair məsləhətlərin verilməsi istiqamətində keçirilən fəaliyyətdir.

**Maariflənmə və məlumatlandırma**

Bu fəaliyyət növü vətəndaşların və ictimaiyyətin anti-korrupsiya sahəsində maariflənmməsini nəzərdə tutur.

**İctimai maraqların müdafiəsi**

Bu fəaliyyət verilən hüquqi məsləhətlərin və maariflənmənin əsasında dövlətin müvafiq siyasətini, institusional təcrübəsini, qanunvericiliyin və pozuntulara görə məsuliyyəti təkmilləşdirmək məqsədilə həyata keçirilir.

**Dövlət orqanlarının institutsional inkişafına yardım**

Bu fəaliyyət nəticəsində bir neçə dövlət orqanlarının qaynar xəttlərinin, korrupsiyaya mübarizə üzrə ixtisaslaşmış işçi qruplarının və s. yaradılmasına və fəaliyyət göstərmələrinə köməklik göstərilməsi nəzərdə tutulur.

**Mobil treninq və seminarlar**

Bu fəaliyyət ərzində mərkəz hüquqşünasları könüllülərin köməyi ilə müxtəlif hədəf qrupları (əsasən kənd əhalisi ilə) üçün görüş keçirir, mobil anti-korrupsiya təlimlərini keçirir və yerlərdə pulsuz hüquqi yardım göstərirlər.

***“Şəffaflıq Azərbaycan” təşkilatı (www.transparency-az.org) və adı çəkilən Layihə (www.alac-az.org) haqqında əlavə məlumat almaq üçün göstərilən internet ünvanlarına müraciət edə bilərsiniz.***

## Mərkəzlərin fəaliyyəti haqqında məlumat[1]

- ***Konfranslar, Seminarlar, Nəşrlər***

Layihənin işçi heyəti hesabat dövrü ərzində müxtəlif təşkilatlar tərəfindən təşkil olunan və özlərinin təşkil etdiyi bir çox seminar, dəyirmi masa və konfranslarda iştirak ediblər. Bu tədbirlərdən ən əlamətdarı "Şəffaflığın Artırılması və Korrupsiyaya qarşı Mübarizə üzrə Azərbaycan Respublikasının Milli Strategiyası üzrə Beynəlxalq Seminar" olub.

Azərbaycanın beş regional mərkəzə malik olan Beynəlxalq Şəffaflıq hərakatı çərçivəsində yeganə ölkə olmasını nəzərə alaraq, Beynəlxalq Şəffaflıq təşkilatı Azərbaycanı, Mərkəzi və Şərqi Avropa və MDB ölkələrinin İllik Regional Konfransın keçiriləcəyi məkan kimi seçmişdir. Adı çəkilən tədbir Azərbaycan Hökumətinin rəhbərliyi ilə cari ilin 30 May-1 İyun tarixləri çərçivəsində Bakıda keçirilmişdir.





*Bu konfransın Bakıda keçirilməsi Azərbaycan Hökumətinin korrupsiyaya qarşı mübarizə aparmaq əzmini nümayiş etdirdi*

Konfransda, 81 nəfər Beynəlxalq Şəffaflıq təşkilatının xarici nümayəndəliklərindən olan işçilər və xarici ekspert, 200-ə qədər Bakıda fəaliyyət göstərən diplomatik korpus və QHT nümayəndələri və habelə Prezidentin İcra Aparatının rəhbəri və Korrupsiyaya qarşı Mübarizə üzrə Dövlət Kommisiyasının rəhbəri cənab Ramiz Mehdiyev, Daxili İşlər Naziri, Respublikanın Baş Prokuroru, Ali Məhkəmənin sədri daxil olmaqla 70-dən çox dövlət məmuru və 30 mətbaut nümayəndəsi iştirak etmişdir.

---

[1] *Hesabatda yalnız hər mərkəz üzrə bir tədbir işıqlandırılıb. Mərkəzlər nəznində keçirilən digər tədbirlər haqqında əlavə məlumat almaq üçün Layihənin koordinatoru Fikrin Bektaşi ilə 418-11-09 nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.*

Aşağıda ayri-ayrı mərkəzlərdə keçirilən tədbirlər haqqında qısa məlumat verilib:

Layihə heyəti Gəncədə yaşayan əhalinin müxtəlif təbəqələri üçün 9 təlim proqramı təşkil etmiş, Lənkərənda korrupsiya haqqında məlumatlılığın artırılması üzrə 8 seminar keçirmiş və Bakıda 2 biznes təlim proqramlarını təşkil etmişdir Bundan əlavə, Layihənin Bakı və Qubadakı ofislərinin əməkdaşları Beynəlxalq Şəffaflıq təşkilatının Monqolustandakı ofisində çalışan həmkarları üçün "İctimai Maraqların Qorunması və Hüququ Məsləhət" layihəsinin idarə olunması üzrə təlim keçmişdir. Eyni cür təlimin cari ilin payız aylarında Qazaxıstanda işləyən həmkarlar üçün keçirilməsi də nəzərdə tutulur.

Layihə, May ayının sonunda Qlobal Korrupsiya 2007 Hesabatını ictimaiyyətin nəzərinə çatdırmışdır. Hesabatda, Azərbaycanın ədliyyə sisteminin analizi haqqında məqalə öz əksini tapmışdır.

Hesabat dövrü ərzində, əvvəlki hesabat dövrü haqqında mətbuat konfransı keçirilmişdir. Layihənin hüquqi mələhət kampaniyası müxtəlif elektron və çap mediası vasitəsilə ictimaiyyətə çatdırılmışdır.

May ayının 2-4-də Layihənin Gəncə ofisi Gəncə Dövlət Universiteti, Gəncə Kənd Təsərrüfatı Akademiyasının tələbələri üçün imtahan sessiyasından əvvəl layihənin xidmətləri haqqında məlumat vermişdir. Görüşdən sonra, Gəncə ofisi anonim qalan şəxslər tərəfindən təhsil sahəsi ilə bağlı bir çox şikayət qəbul etmişdir.




*Gəncə tələbələri korrupsiyaya qarşı mübarizə sahəsinə maraq nümayiş etdirirlər*

Cari ilin May ayının 25-də layihənin Lənkəran ofisinin əməkdaşları Lerik rayonunun Azərbaycan kəndində, Lerik rayonu Milli QHT Forumu Şöbəsinin dəstəyi ilə yerli çayxanada 11 nəfər kişi ilə görüş keçirmişdir. Görüş zamanı kənd sakinlərinə hüquqşünas tərəfindən onları narahat edən məsələlər haqqında məsləhətlər verilmişdir. Sakinlər daha çox sosial müdafiə və məhkəmə sistemində hökm sürən korrupsiya hallarından şikayətlənirdilər.



*Lerik sakinləri hüquqşünas məsləhətlərinə qulaq asırlar*

Cari ilin Aprelin 1-4-də Layihənin Quba ofisinin könüllü işçisi Ramin Mahmudov Quba şəhər orta məktəblərinin on birinci sinif şagirdləri üçün layihənin məqsəd və xidmətləri haqqında seminar keçirmişdir. Seminarın əsas məqsədi gələcəyin liderlərini cəmiyyətin inkişafı naminə korrupsiyaya qarşı mübarizə aparmaqda həvəsləndirmək olub. Bundan əlavə, şagirdlərə müxtəlif layihələrin yazılması haqqında müvafiq təlimatlar verilmişdir.



*Quba şagirdləri layihə yazmaq bacarıqlarına yiyələnirlər*

Cari ilin Aprelin 9-da Şəki şəhər İcra Hakimiyyətinin Küdürlü kənd nümayəndəsinin xahişi ilə Layihənin Şəki ofisinin əməkdaşları və kənd sakinləri arasında görüş keçirilmişdir. "Şəffaflıq Azərbaycan" təşkilatının yerli nümayəndəsi xanım Əmiraslanovanın dediyinə görə, bu təşkilat Küdürlü kəndində tədbir keçirən ilk təşkilatdır. Kənd məktəbində keçirilən tədbirdə 10 qadın daxil olmaqla, 25 nəfər iştirakçı var idi. Kənd sakinlərinə məhkəmələrdə və Dövlət Yol Polisində müşahidə olunan korrupsiya halları haqqında öz fikirlərini söyləmək imkanı verilmişdir. Kənd sakinlərinin dediklərinə görə, Qarabağdan olan məcburi köçkünlər artezian quyularının istifadəsində onlara əngəl törədir və yerli icra

orqanları bu problemə sadəcə göz bağlayır. Görüş çərçivəsində 9 nəfər müvafiq hüquqi məsləhət almış, 2 nəfər isə tədbirdən sonra Layihənin Şəki ofisinə şikayət məktubu yollamışdılar.



*Küdürlü kənd sakinləri açıq şəkildə öz şikayətlərini söyləyirlər*

## DÖVLƏT ORQANLARI VƏ QHT-LƏR ILƏ ƏMƏKDAŞLIQ

Korrupsiyaya Qarşı Mübarizə üzrə Dövlət Kommissiyası və Ədliyyə Nazirliyi keçən illərlə müqayisədə, cari rüb dövründə "Şəffaflıq Azərbaycan" təşkilatı ilə əməkdaşlıq etmək niyyətinini daha qabarıq nümayiş etdirmişdir. Buna baxmayaraq, hər iki orqan təşkilat tərəfindən göndərilən şikayət sorğularını bir çox hallarda cavabsız qoyur.

Bununla belə qeyd etmək lazımdır ki, Təhsil Nazirliyi yeganə dövlət orqanıdır ki, bu sahədə ümumi tendensiyadan irəlidə gedir və bəzi hallarda qanunu pozanlara qarşı inzibati cəza tədbirləri görür. Bu hal xüsusilə Korrupsiya ilə Mübarizə üzrə Dövlət Kommisiyasının sədrinin təhsil sahəsində rüşvətxorluğun geniş yayılması ilə bağlı etdiyi çıxışdan sonra müşahidə olunur. Təhsil Nazirliyi həmçinin yeganə dövlət orqanlarından biridir ki, korrupsiya hallarını açıq-aşkar tanıyır və lazim gəldikdə bu hallara qarşı inzibati tədbirlər görür. Cari ilin May ayının 7-də Nazirliyin korrupsiyaya qarşı mübarizə üzrə tədbirlər planı imzalanmışdır. Tədbirlər Planı özündə "İctimai Maraqların Qorunması və Hüquqi Məsləhət" layihəsinin təcrübəsində əsaslanan qaynar xətt xidmətinin təlimatları, könüllülər və daxili prosedurlar üçün xüsusi təlimatları özündə ehtiva edir.

Yerli İcra orqanları ilə əməkdaşlıq əsasən inzibati xarakterli olduğundan bu sahədə problemlər nisbətən az müşahidə olunur. Misal olaraq, Layihənin Lənkəran ofisinin əməkdaşları bir neçə dəfə Lənkəran Şəhər İcra Hakimiyyətinin Sosial-Siyasi şöbəsinin müdiri cənab Əlimərdan Əliyev ilə görüşmüşdür. Keçirilən görüşlər zamanı regionda layihə tərəfindən mobil təlimlərin keçirilməsi məsələləri icra nümayəndəsi tərəfindən razılıqla qarşılanmışdır. Layihə isə öz növbəsində keçirilən tədbirlərin nəticəsi haqqında olan hesabatı İcra Hakimiyyətinə təqdim etmişdir.

Layihə, yerli QHT-lər ilə sıx qarşılıqlı əməkdaşlıq edirlər. Bir çox hallarda təşkilat yerli QHT-lərə müraciət edərək birgə tədbirlərin keçirilməsi təklifi ilə çıxış edir. Bəzi hallarda isə müxtəlif QHT-lər təşkilatın yerli ofislərindən müəyyən tədbirlərin keçirilməsi üçün istifadə edirlər. Misal olaraq, Layihə əməkdaşları "Dalğa" Tələbə Hərəkatı ilə aylıq görüşlər keçirmişdir. Görüşün məqsədi layihə ilə əməkdaşlıq qurmaq və onları Təhsil Nazirliyinin anti-korrupsiya işçi qrupunda təmsilçiliyini təmin etmək imkanlarını müzakirə etmək olub.

Cari ilin Mayın 2-də Layihənin Lənkəran ofisi "Sülh Korpusu Azərbaycan" təşkilatının nümayəndəsi Ələkbər Quliyev tərəfindən təşkil olunan dəyirmi-masa müzakirəsinə sahiblik etmişdir. Görüşdə müxtəlif yerli və beynəlxalq QHT nümayəndələri təmsil olunmuşdur. Tədbir zamanı, Sülh Korpusu könüllülərinin Layihəyə dəstək imkanları müzakirə olunmuşdur.



*Lənkəran ofisi gənclərin problemləri ilə maraqlanır*

Cari ilin Mayın 8-də Layihənin Quba ofisinin əməkdaşları Qafqaz Tədqiqat və Resurs Mərkəzinin təşkil etdiyi Məhbus Qadınların Sosial Rehabilitasiyası üzrə seminarda iştirak etmişdilər. QHT, İcra Hakimiyyəti və digər dövlət təşkilatlarının nümayəndələri ilə bərabər layihə əməkdaşları penitensiar sistemdə mövcud olan korrupsiya halları haqqında açıq fikirlər söyləmişlər.

 

*Penitensiar sistemdə korrupsiyaya qarşı mübarizə məsələləri aktual xarakter daşıyır*

## MÜRACIƏTLƏRIN ÜMUMI STATISTIKASI

Layihə, qeyd olunan hesabat dövrü ərzində 5 mərkəz daxil olmaqla 1958 ilkin zəng və şikayət qəbul edib: Bakı (432), Gəncə (505), Lənkəran (339), Quba (391) və Şəki (291).

Aşağıda göstərilən diaqram hər beş mərkəz üzrə qəbul olunan şikayətlərin rəqəmlə ifadə olunması göstərilir.



## Şikayətçilərin yaşı

Şikayətçilərin cinsi nisbəti ilə götürsək, kişilər qadınlara nisbətən daha çox şikyət ilə mərkəzlərə müraciət edirlər. Bu hal özünü daha çox kənd yerlərində biruzə verir. Buna əsas verən amillərdən biri isə görüşlərin çayxana və ya ofis daxilində keçirilməsidir. Bakı və Gəncə şəhərlərində qadınların iştirak faizi daha yüksəkdir. Bununla belə, Şəki və Qubada məktəblərdə təşkil olunan tədbirlərdə qadınların çoxluq təşkil etmələri müşahidə olunurdu..

*Aşağıda göstərilən diaqram hər beş mərkəzə müraciət edən şikayətçilərin cinsi nisbətini göstərir:*

| **Şikayətçilərin cinsi** | | **Bakı IX** | **Gəncə IX** | **Lənkəran IX** | **Quba IX** | **Şəki IX** |
|---|---|---|---|---|---|---|
| A | Kişi | 329 | 288 | 253 | 190 | 190 |
| B | Qadın | 103 | 217 | 86 | 101 | 101 |
| C | Müəyyən deyil | 0 | 0 | 0 | 0 | 0 |
| D | Şikayətlərin ümumi sayı | 432 | 505 | 339 | 291 | 291 |

## Şikayətçilərin yaşı

Hər yerdə olduğu kimi, ən aktiv yaş qrupu orta yaşlı əhali hesab edilir. Bununla belə, digər qrupların xüsusi cəhdləri nəticəsində cavan nəsil də yaxşı təmsil olunma imkanından bəhrələnir.

## Şikayətçilərin yerləşməsi

Layihənin ilkin həyata keçirilmə mərhələlərində hüquqi yardım əsasən şəhər əhalisinə edilirdisə, son rüb dövründə regional mərkəzlər kənd yerlərində mobil təlimlər keçirmək yolu ilə daha çox kənd əhalisinin ehtiyacları ilə məşğul olublar.

## Şikayətlər ilkin olaraq necə qəbul olunur

Vətəndaşların telefon vasitəsilə əvvəlcədən görüş təyin etməkdən çox sadəcə gəzməyə üstünlük vermək tendensiyası azalmaqdadırş Telefon zəngi və Layihə ofisinə gəlmə ən geniş yayılmış metoddur. Bir çox hallarda regional mərkəz əməkdaşları özləri ayrı-ayrı kəndlərə səfər edir və mövcud olan problemlərlə yerində tanış olurlar.

## Şikayətlərin ünvanlandığı sahələr

Hər bir mərkəzdə eyni olaraq, məhkəmə sistemi şikayətlərin ən çox ünvanlandığı sahədir. Digər sahələrə isə icra orqanları, polis, pensiya fondu və bələdiyyələr aiddir:

| Sahələr üzrə | | Baku IX | Ganja IX | Lenkoran IX | Quba IX | Şəki IX |
|---|---|---|---|---|---|---|
| A | Məhkəmə | 96 | 87 | 22 | 24 | 42 |
| B | Səhiyyə | 5 | 24 | 9 | 3 | 4 |
| C | Təhsil | 7 | 85 | 7 | 12 | 12 |
| D | Gömrük | 0 | 12 | 2 | 1 | 1 |
| E | Vergi/Maliyyə | 0 | 15 | 3 | 2 | 8 |
| F | Polis | 43 | 43 | 15 | 33 | 21 |
| G | Lizensiyalar (tikinti və s.) | 0 | 0 | 0 | 0 | 3 |
| H | Alqi-aatqı | 0 | 0 | 0 | 0 | 0 |
| I | Özəlləşdirmə | 16 | 1 | 5 | 22 | 9 |
| J | Siyasi Partiya | 0 | 0 | 0 | 0 | 0 |
| K | Inspeksiya | 5 | 3 | 0 | 0 | 9 |
| L | İcra orqanları | 12 | 27 | 60 | 3 | 8 |
| M | Pensiya | 9 | 48 | 9 | 29 | 31 |
| N | Əmək mübahisəsi | 0 | 15 | 0 | 0 | 10 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| O | Bələdiyyə | 25 | 47 | 48 | 26 | 28 |
| P | Prokurorluq | 2 | 13 | 9 | 1 | 3 |
| Q | Özəl sektor | 10 | 0 | 0 | 15 | 4 |
| R | Hərbi Kommisarlıq | 4 | 28 | 1 | 4 | 8 |
| S | Digər | 92 | 57 | 149 | 75 | 75 |
| T | Müəyyən deyil | 106 | 0 | 0 | 141 | 15 |
| U | Müxtəlif sahələr üzrə ünvanlanan çikayətlərin ümumi sayı | 432 | 505 | 339 | 391 | 291 |

## <u>Qəbul olunan telefon zənglərinin sayı</u>

*Aşağıdakı diaqram beş mərkəz üzrə qəbul olunan telefon zənglərinin sayını göstərir:*



# UĞURLA HƏLL EDILMIŞ BƏZI MÜRACIƏTLƏR

## Bakı üzrə

1. **B2228/597 Əvvəllər verilməyən pensiya indi bütövlükdə ödənilir.** Bakı şəhər Nərimanov rayonu sakini şikayət edirdi ki, onun anasından pensiyanın ödənilməsi əvəzində rüşvət istəyirdilər. Layihənin işə qarışması şikayətin həqiqiliyini təsdiqləmiş və pensiyanın ödənilməsi bərpa edilmiş, habelə əvvəl ödənilməmiş 3 illik pensiya həcmi də geri qaytarılmışdır.

2. **B1345/401 Doğum şəhadətnaməsinin surəti verilib.** Bakı şəhər sakini şikayət edirdi ki, o Dövlət Arxivindən doğum şəhadətnaməsinin surətini ala bilmir. Layihənin göndərdiyi məktub nəticəsində məsələ öz həllini tapdı.

3. **B2270/631 Məzuniyyət haqqı ödənildi**. Bakı şəhər sakini şikayət edirdi ki, Sabunçu Tədqiqat və İstehsalat Şirkəti onun məzuniyyət haqqını kəsmişdir. Layihənin işə müdaxiləsindən sonra məsələ öz həllini tapdı.

4. **B2084/566 Korrupsiyaya uğramış polis əməkdaşı məsuliyyətə cəlb olunub.** Vətəndaş şikayət edib ki, Bakı şəhər Yasamal rayon polisi küçə alveri üçün rüşvət tələb edib. Polis əməkdaşı məsuliyyətə cəlb olunub.

5. **B1912/538 Korrupsiyaya uğramış bələdiyyə sədri məsuliyyətə cəlb olunub.** Vətəndaş Bakı şəhər Xətai rayon bələdiyyəsinin qanuna zidd əməlləri haqqında şikayət edib. Ədliyyə Nazirliyi bələdiyyə sədrini vəzifəsində azad etdi.

6. **B2256/617 Vətəndaşlıq alan şəxs yerli passport alıb.** Gürcüstanda anadan olan vətəndaş Azərbaycan ordusunda xidmət etdikdən sonra (avtomatik olaraq Azərbaycan vətəndaşı olmaq statusunu verir) müvafiq məhkəmə qərarının çıxarılmasına baxmayaraq, Abşeron rayon polis idarəsi ona şəxsiyyət vəsiqəsi verməkdə imtina edib. Layihənin işə müdaxiləsindən sonra məhkəmə qərarı öz icrasını tapdı.

7. **B1954/560 Düzgün olmayan qaz pulunun miqdarı ləğv olunub.** Vətəndaş şikayət edirdi ki, Bakı şəhər Nəsimi rayon qaz təchizatı idarəsi təkid edir ki, şikayətçinin böyük miqdarda qaz borcu var. Layihənin müdaxiləsindən sonra qaz idarəsi öz səhvini tanımalı oldu.

<u>**Gəncə üzrə**</u>

1. **G1233/998. Ədliyyə Nazirliyindən sənədlər əldə edildi.** Gəncə sakini həyat yoldaşının həbsdə olduğu üçün Ədliyyə Nazirliyindən lazimi sənədləri ala bilmədiyindən şikayətlənirdi. Layihənin işə müdaxiləsindən sonra lazimi sənədlər qaytarıldı.

2. **G1313/1002. Məhkəmə qərarı icra edildi və torpaq mülkiyyəti sənədləri qaytarıldı.** Şəmkir sakini şikayət edirdi ki, hakim məhkəmə qərarının icrasından boyun qaçırır və torpaq mülkiyyəti sənədlərini qaytarmır.

3. **G1361/1045 Sürücülük vəsiqəsi qaytarıldı.** Gəncə şəhər sakini şikayət edirdi ki, Bakı hava limanı polisi onun sürücülük vəsiqəsini götürmüş və əvəzində 100 ABŞ dolları məbləğində rüşvət tələb edib. Layihənin işə müdaxiləsindən sonra sənədlər geri qaytarldı.

4. **G1440/1127. Elektrik teli pulsuz quraşdırıldı.** Gəncə şəhər sakini şikayət edirdi ki, elektrik şirkəti elektrik tellərinin quraşdırılması üçün 150 ABŞ dolları məbləğində pul tələb edib. Layihənin işə qarışmasından sonra məftil pulsuz olaraq quraşdırıldı.

5. **G1471/1153 Şəxsiyyət vəsiqəsi verildi.** Vətəndaş şikayət edirdi ki, Minqəçevir Polisi şəxsiyyət vəsiqəsinin verilməsi üçün 100 Manat pul tələb edirdi. Layihənin göndərdiyi rəsmi məktuba cavab tədbiri olaraq, vətəndaş öz şəxsiyyət vəsiqəsini aldı.

6. **G1542/1227 100 baş mal-qara yiyəsinə qaytarıldı.** Kəndçi şikayət edirdi ki, onun 100 baş mal-qarası oğurlanmış və Samux polisi bu fakta susmuşdur. Layihənin göndərdiyi məktubdan sonra mal-qara "tapılmış" and yiyəsinə qaytarılmışdır.

7. **G1210/987 Torpaq hüquqi yiyəsinə qaytarıldı.** Gədəbək kəndinin sakini şikayət edirdi ki, bələdiyyə onun torpağını başqasına satmışdır. Layihənin işə qarışmasından sonra torpaq öz həqiqi sahibinə qaytarıldı.

## Lənkəran üzrə

1. **B2098/578 Özəlləşdirmə sertifikatı verildi.** Vətəndaş şikayət edirdi ki, Astara Özəlləşdirmə idarəsi özəlləşdirmə üçün 500 ABŞ dolları məbləğində rüşvət tələb edir. Layihənin işə müdaxiləsindən sonra məsələ öz müsbət həllini tapdı.

2. **L363. Əlillik şəhadətnaməsi verildi.** Lənkəran sakini şikayət edirdi ki, onun əllilik şəhadətnaməsi yerli icra orqanları tərəfindən verilmir. Layihənin göndərdiyi məktub nəticəsində məsələ özünün tez həllini tapdı.

3. **L378. Prokuror istintaqın icrasına razılıq verdi.** Vətəndaş şikayət edirdi ki, Astara prokuroru vətəndaşın onun qonşusu tərəfindən edilən təzyiq faktını araşdırmaqdan çəkinir.

4. **L596. 1995-ci ildən gecikən əmək haqqı ödənildi.** Lənkəran şəhır Elektrik Enerjisi Stansiyasının işçisi 1995-2003-cü illər ərzində öz əmək haqqını ala bilmirdi. Layihənin işə müdaxiləsindən sonra əmək haqqı hissə-hissə ödənilməyə başlandı.

## Quba üzrə

1. 66/34 – Quba şəhər sakini layihənin yerli ofisindən xahiş etmişdir ki, ona məhkəmə qərarının Quba icra hakimiyyəti tərəfindən yerinə yetirilməsində yardım göstərilsin. Bunu nəzərə alaraq, Layihə tərəfindən Ədliyyə Nazirliyinin Məhkəmə İcrası İdarəsinin rəhbərinə göndərilmişdir. Layihənin işə müdaxiləsindn sonra məhkəmə qərarı öz icrasını tapdı.

2. 547/73 – Quba şəhər sakini şikayət edirdi ki, məhkəmə qərarı yerinə yetirilmir. Layihə müvafiq məktub göndərdikdən sonra, məhkəmə qərarı öz icrasını tapdı.

3. 141/52 – Quba sakini şikayət edirdi ki, o ünvanlı social yardım ala bilmir. Bununla əlaqədar, Quba şəhər Sosial Müdafiə İdarəsinə məktub göndərilmişdir. Şikayətçidən əlavə sənədlərin təqdim olunması tələb olunduqdan sonra məsələ öz həllini tapdı.

4. 412/70 – Qubanın Alpan kənd sakini şikayət edirdi ki, Quba Notariatı ondan rüşvət tələb edib. Ədliyyə Nazirliyinə rəsmi şəkildə məktub göndərildikdən sonra vətəndaşa lazimi xidmət göstərilməsi təmin olunmuşdur.

5. 442/68 – Quba şəhər sakini şikayət edirdi ki, onun kassasiya şikayəti məhkəmə hüquq tərəfindən müəyyən olunmuş vaxt çərçivəsində məhkəmə tərəfindən qəbul edilmir. Layihənin Məhkəmə Hüquq Şurasına göndərdiyi rəsmi məktub Ali Məhkəməyə müraciət ilə nəticələnmiş və vətəndaşa məhkəməyə müraciət etmək hüququ verilmişdir. Hal-hazırda məsələyə baxılır.

6. 466/69 – Quba şəhər sakini şikayət edirdi ki, onun dəfələrlə etdiyi müraciətlərə baxmayaraq, prokurorluq işin tədqiqatını aprmaqdan imtina edir. Mərkəzi Prokurorluğa göndərilən məktubdan sonra Quba rayon prokurorluğuna işin tədqiqatını aprmağı tapşırılmışdır.

7. 51/27 – Quba şəhər sakini şikayət edirdi ki, Quba şəhər Torpaq və Xəritəçəkmə İdarəsi onun torpaq mülkiyyətini tanıyan sənədi verməkdə imtina edir. Layihənin işə müdaxiləsindən sonra məsələ öz həlini tapdı.

## Şəki üzrə

1. 110/16 – Şəki şəhər sakini yeni biznes ofis tikmək üçün şəhərdə kiçik torpaq sahəsi almaq barədə yerli bələdiyyəyə müraciət etmişdir. Vətəndaşa Bələdiyyə İdarəsi və yerli İcra Hakimiyyətindən bunun müqabilində rüşvət tələb edilmişdir. Vətəndaş həmin orqanlara Layihənin ofisinə şikayət etmək iddiası ilə hədələmişdir və yerli orqanlar onu bu addımı atmaqdan çəkindirməyə çalışırdılar. Bununla belə, vətəndaş Layihəyə müraciət etdi və hazırda torpağın alınması prosesi yerinə yetirilməkdədir. İcra orqanlarının vətəndaşın layihəyə müraciət etmək ilə bağlı məlumat əldə etmələri Layihənin yerli ofisinin əməkdaşlarını təəcübləndirdi.

2. 153/18 Xarici vətəndaş olan Şəki şəhər sakini şikayət edirdi ki, polis onu qeydiyyata almaqdan imtina edir. Layihənin Daxili İşlər Nazirliyinə göndərdiyi rəsmi məktubdan sonra xarici vətəndaş çağırılmış və ona qeydiyyat proseduru haqqında məlumat verilmişdir. Nəticədə, xarici vətəndaş qeydiyyatdan keçmişdir.

3. 168/26 Şəki şəhər sakini şikayət edirdi ki, Şəki şəhər Yanğından Mühafizə Xidməti onun sorğusuna iki cavab vermişdir. Bununla belə, eyni qeydiyyat nömrəsi olan hər iki məktub mübahisəli məzmuna malik idilər. Nəticədə, vətəndaşa yekun cavab verilmiş və müstəntiq müvafiq qərar çıxarmışdır.

4. 286\36 Şəki şəhər sakini şikayət edirdi ki, o müharibə veteranları üçün nəzərdə tutulmuş ünvanlı sosial yardım ala bilmir. Layihənin göndərdiyi məktub nəticəsində, yerli Sosial Müdafiə Fondu tərəfindən yardımın ödənilməsi bərpa edilmişdir.

5. 178/31 Şəki şəhər sakini şikayət edirdi ki, Şəki şəhər İcra Hakimiyyəti şəxsi evin tikilməsi qarşısında əngəllər törədir və icazə verməkdən imtina edir. Layihənin göndərdiyi məktubdan sonra, müvafiq icazə alınmışdır.

6. 173/29 Şəki şəhər sakini şikayət edirdi ki, onun şikayəti Appelyasiya Məhkəməsində qeydiyyata alınmayıb. Layihə məsələnin həllində öz yardımını etdi.